**"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 oktyabr 2010-cu il.
№ 1110-IIIQ

**Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq,

Tərəflər arasında ticarət əlaqələrinin inkişafı və kommersiya kontraktları həyata keçirilərkən öz dövlətlərinin ərazilərini karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasından və yayılmasından qorunması maraqlarından çıxış edərək,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı davam etdirmək, genişləndirmək və dövlət karantin tədbirlərinin əlaqələndirilməsini təmin etmək istəyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakı mənalan daşıyır:

- "zərərli orqanizm" — bitki və bitkiçilik məhsullarına zərər vuran heyvanların, bitkilərin və ya xəstəlik törədən mikroorqanizmlərin hər-hansı növü, növün dəyişmiş forması, yaxud bioloji tipi (bitki xəstəlikləri, zərərvericiləri və alaq otları);
- "karantin tətbiq edilən zərərli orqanizm" - ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş, ətraf mühitə, ərazinin iqtisadiyyatına və əhalinin sağlamlığına potensial təhlükə yaradan zərərli orqanizm;
- "karantin nəzarətində olan material" — zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, fitosanitar tədbirlərin aparılmasını tələb edən

(xüsusilə beynəlxalq yükdaşımaları zamanı) bitki, bitkiçilik məhsulları, onların saxlanma yeri, qablaşdırma materialı, nəqliyyat vasitələri, torpaq və hər hansı orqanizm, obyekt, yük.

Maddə 2

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti;

Mavritaniya İslam Respublikası HÖkuməti tərəfindən - Kəndlərin İnkişafı Nazirliyinin Kənd Təsərrüfatı Departamentidir.

Maddə 3

Tərəflər karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı qüvvədə olan milli qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri bu Sazişin ayrılmaz hissəsi olan əlavə 1-də və əlavə 2-də göstərilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahılarına uyğun olaraq həyata keçirəcəklər.

Tərəflərin səlahiyyətli orqanlarının qarşılıqlı razılığı ilə karantin tətbiq edilən zərərli orqanizmlərin siyahılarına əlavələr və dəyişikliklər edilə bilər.

Pullu xidmətlərin mövcud olduğu təqdirdə, karantin nəzarətində olan materialların yoxlanılmasına çəkilən xərclər yük sahibi tərəfindən Tərəflərin dövlətlərinin ərazisində mövcud tariflərə uyğun ödənilir.

Maddə 4

Tərəflər bir ölkədən göndərilən karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı Tərəflərin qüvvədə olan milli və beynəlxalq qanunvericiliklərinə müvafiq olaraq təsdiq olunmuş fitosanitar qaydalarına riayət etməyi öhdələrinə götürürlər.

Maddə 5

Tərəflər bitki karantini və mühafizəsi sahəsində səmərəli əməkdaşlıq etmək məqsədilə qüvvədə olan milli qanunvericiliyə müvafiq olaraq öhdələrinə götürürlər:

- karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı karantin zərərverici orqanizmlərinin bir Tərəfin dövlətinin ərazisindən o biri tərəfin dövlətinin ərazisinə daxil olmasının qarşısını almaq məqsədilə lazımi tədbirlərin görülməsini;
- Azərbaycan Respublikasının və Mavritaniya İslam Respublikasının ərazilərində bitki karantini və mühafizəsi tədbirlərini tənzimləyən qayda və əsasnamələrin mübadiləsini;
- Tərəflərin dövlətlərinin ərazilərində karantin və digər təhlükəli zərərli orqanizmlərin qeydə alınması və yayılması barədə informasiya mübadiləsini;
- bitki karantini və mühafizəsi sahəsində elmi-tədqiqat işləri barədə informasiya mübadiləsini;
- karantin nəzarətində olan materialların istehsalı və tədarükü yerlərində seçmə yolu ilə yoxlanılmasını təşkil etmək, bitki karantini və mühafizəsinə aid məsələlərin operativ həlli, eləcə də bitki karantini və mühafizəsi sahəsində elmi nailiyyətləri və təcrübəni öyrənmək məqsədilə mütəxəssislərin ezam edilməsini və təcrübə mübadiləsini;

- bitki karantini və mühafizəsi tədbirlərinin keçirilməsini, karantin tətbiq edilən zərərli orqanizmlərin aşkar edilməsini, lokallaşdırılmasını, ləğv edilməsini;

- Tərəflərdən birinin xahişi ilə fövqəladə hallarda qarşılıqlı təcili tədbirlər görmək məqsədilə bitki karantini və mühafizəsi sahəsi üzrə mütəxəssislərdən ibarət ekspedisiyaların ezam olunmasını.

Maddə 6

Tərəflər qüvvədə olan milli qanunvericiliyə uyğun olaraq, ixrac, idxal olunan və ya tranzit daşınan karantin nəzarətində olan materiallarla karantin tətbiq edilən zərərli orqanizmlərin Azərbaycan Respublikasının və ya Mavritaniya İslam Respublikasının ərazisinə daxil olmasının qarşısını almaq məqsədilə bütün lazımi tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Bir Tərəfin dövlətinin ərazisinə digər Tərəfin dövlətinin ərazisindən idxal edilən karantin nəzarətində olan materialın hər yük partiyası ixrac edən ölkənin bitki karantini və mühafizəsi xidməti tərəfindən verilmiş fitosanitar sertifikatla müşayiət edilməlidir və Tərəflər sertifikatların nümunələri ilə mübadilə etməlidirlər. Sertifikat karantin nəzarətində olan materiallar idxal edən Tərəfin idxal karantini icazəsində qoyulmuş fitosanitar normalarına cavab verməsini təsdiq etməlidir.

Fitosanitar sertifikata və idxal karantin icazəsinə çəkilən xərclər yük sahibi tərəfindən, iki dövlətin ərazilərində qəbul olunmuş tariflər üzrə ödənilməlidir (pullu xidmətlər mövcud olduğu təqdirdə).

Tərəflərin səlahiyyətli orqanları karantin nəzarətində olan materialların ayrı-ayrı yük partiyalarının alınması zamanı, habelə materialların fitosanitar vəziyyətinə dair əlavə şərtlər qoymaq (zərərsizləşdirmək, yenidən qablaşdırmaq, kənar qarışıqlardan və torpaqdan azad edilməsi, ağac qabığının olmaması, yuyulma, germetiklik və s.) hüququna malikdirlər.

Karantin nəzarətində olan materialların ölkə ərazisindən tranziti Tərəflərin milli və beynəlxalq qanunvericiliklərinə müvafiq olaraq həyata keçirilir.

Maddə 7

Azərbaycan Respublikasının və Mavritaniya İslam Respublikasının dövlət əraziləri ilə karantin nəzarətində olan materialların ixracı, idxalı və tranziti Tərəflərin milli qanunvericiliyində müəyyən edilmiş qaydada sərhəd buraxılış məntəqələri vasitəsilə həyata keçirilir.

Maddə 8

Karantin nəzarətində olan materialların ixracı zamanı qablaşdırma materialı kimi karantin tətbiq edilən zərərli orqanizmlərin daşıyıcıları olmayan və torpaqdan azad olan taxta kəpəyi, yonqar, kağız, plastik kütlə və s. materiallar tətbiq ediləcəkdir. Quru ot, küləş, püfə, yarpaq və başqa bitki mənşəli materiallardan isə Tərəflərin ilkin razılaşmalarından sonra istifadə oluna bilər.

Tərəflərin birinin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə karantin nəzarətində olan materialların daşınmasında istifadə olunan nəqliyyat vasitələri əsaslı təmizlənməli və lazım gəldikdə zərərsizləşdirilməlidir.

Maddə 9

Tərəflərin səlahiyyətli orqanları fitosanitar nəzarəti zamanı zərərli orqanizmləri aşkar etdikdə Tərəflərin milli qanunvericiliyində nəzərdə tutulan tədbirlər görülür.

Karantin nəzarətində olan materialların geri qaytarılması və ya zərərsizləşdirilməsi mümkün olmadıqda onun məhv edilməsi milli qanunvericilik əsasında və digər Tərəfin səlahiyyətli orqanına əvvəlcədən məlumat verməklə həyata keçirilməlidir.

Maddə 10

Bu Sazişin həyata keçirilməsində praktiki məsələlərin həlli üçün Tərəflərin səlahiyyətli orqanları lazım gəldikdə hər iki dövlətdə növbə ilə birgə məsləhətləşmələr keçirilməsini təşkil edirlər.

Məsləhətləşmələrin yeri, tarixi və müzakirə olunan məsələlərin siyahısı Tərəflərin səlahiyyətli orqanları tərəfindən müəyyən edilir.

Məsləhətləşmələrin keçirilməsi ilə bağlı təşkilatı xərcləri qəbul edən Tərəfin səlahiyyətli orqanı ödəyir. Nəqliyyat və kommunal xərcləri hər bir Tərəf özü ödəyir.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan və 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən, ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 12

Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 13

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən və ya onların bitki karantini və mühafizəsi üzrə beynəlxalq təşkilatlara üzvlülüyündən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 14

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfi diplomatik kanallarla yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi növbəti beşillik müddətə uzadılır.

Bakı şəhərində «15» iyul 2010-cu ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və ərəb dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikası**
**Hökuməti adından**

**İsmət Abbasov**
Kənd Təsərrüfatı Naziri

**Mavritaniya İslam Respublikası**
**Hökuməti adından**

**İbrahim Uld Mübarək**
**Uld Məhəmməd Muxtar**
Kəndlərin İnkişafı Naziri

Azərbaycan Respublikası Hökuməti və
Mavritaniya İslam Respublikası Hökuməti
arasında bitki karantini və mühafizəsi
sahəsində əməkdaşlıq haqqında Sazişə

**Əlavə 1**

## Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin

## SİYAHISI

### Azərbaycan Respublikası ərazisində aşkar edilməyən karantin tətbiq edilən zərərli orqanizmlər (A 1 qrupu)

### Həşəratlar (A)

Agrilus mali Mats
Aleurocanthus woglumi Ashby
Aleurothrixus floccosus Mask
Anarsia lineatella Zeller
Anguina tritici (Steinb)
Anthonomus grandis Baheman
Aphelenchoides besseyi Christie
Bactrocera cucurbitae (Coguillet)
Bemisia tabaci (Gennadius)
Bursaphelenchus xylophilus (Steiner et Buhrer) Nickle
Cacoecimorpha pronubana Hubner
Callosobruchus chinensis L.
Carposina niponensis Wlsghm.
Caryedon gonara Ol.
Caulophilus oryzae Gyll
Ceratitis capitata Wied.
Ceroplastes rusci L.
Conotrachelus nenuphar (Herbst)
Dacus ciliatus Loew
Diabrotica virgifera virgifera le Conte
Ditylenchus destructor Thorne
Ditylenchus dipsaci (Kuhn) Filipjev

Earias insulana Boisduval
Globodera pallida (Stone) Behrens
Globodera rostochiensis (Woll.) Behrens
Liriomyza trifolii (Burgess)
Lymantria dispar L (asian race)
Meloidogyne chitwoodi Golden et al.
Numonia pyrivorella Mats.
Pantomorus leucoloma Boh.
Parasaissetia nigra (Nietner)
Pectinophora gossypiella Saund.
Pectinophora malvella Hb.
Phthorimaea operculella Zell.
Popillia j aponica Newm.
Pseudococcus citriculus Green
Pseudococcus gahani Green
Rhagoletis pomonella Walsh.
Saissetia oleae Bern.
Spodoptera littöralis Boisd.
Spodoptera litura Fabr.
Tetradacus citri Chen.
Thrips palmi Karny
Trogoderma granarium Everts
Unaspis citri Comst.
Unaspis yaponensis Kuw. Z
abrotes subfasciatus Boh

**Bakteriyalar (B)**

Xanthomonas campestris pv. citri Dye
Xanthomonas campestris pv. corylina Dye
Xanthomonas campestris pv. phaseoli Dye
Xanthomonas campestris pv. vesicatoria Dye
Xanthomonas oryzae Scumgs et al. pv. oryzae (Ishiyama) Swings et al.
Xanthomonas oryzae Scumgs et al. pv. oryzicola (Fang et al.) Swings et al.
Clavibacter michiganensis subsp sepedonicus (Spieckermann and Kotthoff) Davis et al.
Erwinia stewartii (Smith) Dye.
Erwinia amylovora (Burrill) Winslow et al.
Ralstonia solanacearum (Smith) Yabuuchi et al.
Pseudomonas caryophylli Burkholder.

**Göbələklər (F)**

Anqiosorus solani Thirumulachar et O'Brien
Cochliobolus carbonum R.R. Nelson
Cochliobolus heterostrophus (Drechsler) DreehsIer(Rase T) (Helminthosporium maydis Nisikado et Miyake)
Deuterophoma tracheiphila Petri

Didymella chrysanthemi (Tassi) Garibaldi et. Gullino
Elsinoe fawcettii Bitancourt et A.E. Jenkins
Glomerella qossypii (South) Edgerton.
Cryphonectria parasitica (MurriII) Borr
Phialophora cinerescens (Wollenweber) van Beyma
Phoma exigua var. foveata (Foister) Bolrema
Phomopsis helianthi Munt - Cvet et al.
Phymatotrichopsis omnivora (Duggar) Hermebert
Puccinia horiana P. Hennings
Stenocarpella macrospora Sutton  (Stenocarpella maydis Sutton)
Synchytrium endobioticum (Schilb.) Percival
Tilletia controversa Kuhn
Tilletia indica Mitra
Uromyces transversalis (Thümen)Winter

**Virus, mikoplazma və viroidlər (V)**

Tristeza virus

**Alaq otlan və parazit bitkilər (W)**

Ambrosia psilostachya D.C.
Ambrosia trifida L.
Cenchrus payciflorus Benth.
Iva axillaris Pursh.
Solanum carolinense L.
Solanum elaeagnifolium Cav.
Solanum triflorum Nutt.
Striga (spp.)

**Azərbaycan Respublikası ərazisində məhdud dairədə yayılmış karantin tətbiq edilən zərərli orqanizmlər (A 2 qrupu)**

**Həşəratlar (A)**

İcerya purchasi Maskell
Hyphantria cuneaDrury
Grapholita molesta (Busck)
Cuadraspidiotus perniciosus
(Comstosk)
Leptinotarsa decemlineata Say
Pseudoulacaspis pentagona (Targioni-Tozzetti)
Pseudococcus comstocki Kuwana
Callosobruchus maculatus Fabricius
Viteus vitifoliae (Fitch)
Dialeurodes citri (Ashmead)
Phyllocnistis citrella Stainton
Ceroplastes japonicus Green

Löpholeucaspis japonica (Cockerell)

**Alaq otları və parazit bitkilər (W)**

Ambrosia artemisiifolia Linnaeus
Acroptilon repens (Linnaeus) De Candolle
Solanum cornutum Dunal Cuscutasp.

**Azərbaycan Respublikası üçün potensial təhlükə törədə bilən zərərli orqanizmlər (B 1 qrupu)**

**Həşəratlar (A)**

Phthorimaea operculella (Zeller)

Azərbaycan Respublikası Hökuməti
və Mavritaniya İslam Respublikası
HÖkuməti arasında bitki karantini
və mühafizəsi sahəsində əməkdaşlıq
haqqında Sazişə

**Əlavə 2**

**Nazirliyin 1257 saylı qərarı**

**Kəndlərin İnkişafı nazirliyi qərara alır:**

**1) 26 iyul 2000-ci il tarixli, 2000-42 saylı qərara uyğun olaraq, 25 iyul 2002-ci il, 062-2002 saylı qərarın 16-cı maddəsinə istinadən karantini tətbiq edilən və Mavritaniya ərazisinə daxil olunması qadağan edilən zərərli orqanizmlərin siyahısı**

**2) karantini tətbiq edilən və Mavritaniya ərazisinə daxil olunması qadağan edilən zərərli orqanizmlərin**

**Siyahısı:**

**a-. Cryptogames**

- Elsinoe batata
- Cochilobolus carbonum
- Fusarium oxysporium albedinis
- Fusarium oxysporium fsp cubense
- Fusarium oxysporum var vasinfectum
- Glomerella gossypii
- Mycosphaerella arachidi
- Mycosphaerella fijiensis
- Mycosphaerella musicola
- Periconia circinata
- Peronosclerospora philippinensis
- Peronosclerospora sacchari

- Phymatotrichopsis omnivora
- Phytophtora capsici
- Phytophtora cinnamomi
- Phytophtora vignae
- Plasmopara halstedii
- Phoma andina
- Phoma exigua var foveata
- Puccinia arachidis
- Puccinia purperea
- Pyricularia oryzae
- Sphaceloma arachidis
- Sphacelotheca cruenta
- Spongospora subterranea
- Stenocarpella macrospora
- Stenocarpella maydis
- Synchyrium endobioticum
- Thecaphora solani
- Tilletia indica

**b- Organismes nuisibles du regne animal, ä tous les stades de leur** developpement

- Aleurocanthus spiniferus
- Aleurocanthus woglumi
- Aleurodicus dispercus
- Anastrepha spp
- Anthonomis grandis
- Bactrocera ciliatus
- Bactrocera dorsalis
- Bactrocera zonatus
- Bemisia tabaci Genn. Vecteur de virus tels que:

    Bean golden mosaic virus
    Cowpea mild mottle virus
    Cucurbit yellows staunting closterovirus
    Lettuce chlorosis closterovirus
    Lettuce infectious yellows virus
    Pepper mild tigre virus
    Squash leaf curl begomovirus
    Euphorbia mosaic virus
    Florida tomato virus
    Tomato chlorosis virus
    Tomato yellow leaf curl bigomonivirus
    Squash yellow leaf curl virus

- Ceratitis rosa
- Cosmopolites sordidus
- Cryptorhynchus olivieri

- Diocalandra frumenti
- Lecanoideus floccissimus
- Leptinotarsia decemlineata
- Lyriomyza spp
- Opogona scchari
- Pentalonia nigronenvosa
- Premnotrypes spp
- Quadraspidiotus pernicrosus
- Rhagoletis spp
- Rhynchophorus spp
- Thrips palmi

**c- Procaryotes**

- Agrobacterium tumefaciens
- Clavibacter michiganensis subsp michiganensis
- Clavibacter michiganensis subsp sepedonicus
- Curtobacteriumflaccumfascienspvflaccumfasciens
- Palm lethal yellowing phytoplasma
- Pantoea stewartii
- Pseudomonas lachrymans
- Pseudomonas syringae pv pisi
- PotatostolburMLO
- Ralstonia solanacearum
- Xanthomonas campestris pv malvacearum
- Xarithomonas axonopodis pv phaseoli
- Xanthomonas oryzae pv oryzae
- Xanthomonas oryzae pv oryzicola
- Streptomyces ipomocae

**d- Virus et viroides**

- Banana bract mosaic disease
- Banana bunchy top luteovirus
- Bunchy top virus
- Cassava brown streak virus
- Coconut cadang-cadang viroid
- Pea seed bome mosaic potyvirus
- Rice black streaked dwarf virus
- ShinkaT rice dwarf virus
- Sweet potato internal cork virus
- Sweet potato littie leaf

*** Virus et organismes analogues de la pomme de terre**

- Virus et organismes analogues de la pomme de terre:
- PotatoAndean latent tymovirus
- Potato Andean mottle comovirus

- Arracacha B virus, oca strain
- Potato black ringspot nepovirus
- Potatospindletuberviroid
- Potato T trichovirus
- Potato yellow dwarf nucleorhabdovirus
- Potato yellowing alfamovirus
- Potato yellow vein? Crinivirus
- İsolats n'existant pas dans la zone euro-mediteraneenne des virus A, M, S, V, X et Y (y compıis Yo, Yn et Yc), ainsi que du potato leaf roll virus
- Watermelon silver mottle tospovirus

**e- Nematodes**

- Aphelenchotdes besseyi
- Ditylenchus dipsaci
- Globodera paliida
- Globodera rostochiensis
- Pratylenchus coffeae
- Radopholus citrophilus
- Radopholus similis

**f- Plantes parasites**

- Arceuthobium

**g- Plantes envahissantes**

- Eichhorinia crassipes
- Pistia spp Salvinia molesta
- Typha australis

3) Təcrübə və elmi tədqiqatlar məqsədilə Kəndlərin İnkişafı Naziri 1257 saylı qərarın 2-ci maddəsinə uyğun olmayan bitki karantini tətbiq edilən bəzi maddələrin ölkə ərazisinə daxil olmasına icazə verən xüsusi tədbirlər həyata keçirmək səlahiyyətinə malikdir.

Bu maddələrin ölkə ərazisinə daxil edilməsi Kəndlərin İnkişafı Nazirliyinin bitkilərin mühafizəsi üzrə departamentinin qanunlarına tabe olmalı və onun xüsusi nəzarətində olmalıdır.